# Şanlı tarix yaradıcısı



**B**əşəriyyətin dünyaya bəxş etdiyi az sayda şəxsiyyətlər var ki, onlar tarixdə bənzərsiz olur, insanlığın zirvəsinə çevrilən həmin şəxslər xalqının sevimlisi, istinad mənbəyi sayılır. İnsanlıq tarixində əbədiyaşarlıq qazanan şəxsiyyətlər sırasında xalqımızın Ümummilli Lideri Heydər Əliyevin xüsusi yeri var. Hələ sağlığında əfsanələşən, zamanı qabaqlayan Heydər Əliyev fenomeni Azərbaycanın inkişaf tarixini yazdı.

Xalqımız Ulu Öndərin anadan olmasının 100 illiyini qeyd edir. Ömrünü xalqına həsr etmiş dahi Heydər Əliyev tarixdə cəsarətli və yaradıcı dövlət xadimi kimi iz qoydu. O, tarixdə Azərbaycan xalqının Ümummilli Lideri, dünya miqyaslı ictimai-siyasi xadim, müstəqil Azərbaycan dövlətinin banisi, dövlətin inkişaf strategiyasının əsasını qoyan, Azərbaycan xalqının iradəsini qətiyyətlə ifadə edən siyasi lider kimi qalacaq.

Heydər Əliyev Azərbaycanın ən çətin anında - Sovet İttifaqının dağıldığı, ölkənin parçalandığı, xalqın ruhdan düşdüyü bir dövrdə siyasi meydana xalqın xilaskarı kimi daxil oldu. Ötən əsrin 60-cı illərindən ömrünün sonunadək Azərbaycanın müstəqilliyi üçün çalışdı, inadla mübarizə apardı. Müstəqilliyin qorunmasının onun əldə edilməsindən qat-qat çətin olduğunu bildirən Heydər Əliyev bu ağır vəzifənin öhdəsindən layiqincə gəldi.

Ulu Öndər dövlətimizin müstəqilliyini əbədi və dönməz etdi, ölkəmizə sabitlik, sülh və əmin-amanlıq, siyasi islahatlar, demokratikləşmə gətirdi. Respublika iqtisadiyyatını dirçəltdi, Azərbaycanı tənəzzüldə olan dövlətdən inkişaf edən ölkəyə çevirdi. Azərbaycan Konstitusiyasının müəllifi olan Ulu Öndər dövləti və xalqı müdafiə etməyə qadir olan ordu yaratdı, dağılmış iqtisadiyyatı dirçəltmək istiqamətində güclü iş apardı, Azərbaycanın siyasi və iqtisadi istiqamətlərdə aparıcı ölkələrlə bağlılığını təmin etdi.

Azərbaycanın beynəlxalq əlaqələrini möhkəmləndirərək, gələcək inkişafa hesablanmış neçə-neçə layihənin, xüsusilə uğurlu neft strategiyasının təməlini qoydu. Düşünülmüş xarici siyasət kursu ölkəmiz üçün təkcə siyasi dəstək deyil, həm də iqtisadi əməkdaşlıq və investisiya imkanları yaratdı. Polad iradə sahibi olan Heydər Əliyev planetimizin bugünkü siyasətini müəyyənləşdirən dünya liderləri içərisində seçilənsayılan, qəbul olunan əzəmətli şəxsiyyət idi.

Davamçısı, ideyalarını daim irəli aparan varisi olan siyasətçi xoşbəxtdir. Siyasi varislik baxımından da mükəmməl olan Ulu Öndər Heydər Əliyevin siyasi kursunu bu gün Prezident İlham Əliyev layiqincə davam etdirir. Ulu Öndər uzaqgörənliklə deyirdi ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri İlham Əliyev başa çatdıra biləcək.

"Əgər torpaqlarımız sülh yolu ilə azad olunmazsa, biz nəyin bahasına olursa olsun, torpaqlarımızı azad edəcəyik. Dünya bilməlidir, hamı bilməlidir, o cümlədən Ermənistan tərəfi bilməlidir ki, biz torpaqlarımızın bir metrəsini də, bir qarışını da heç kəsə verməyəcəyik", - deyən Ulu Öndər qələbəmizə hər an inanırdı. Ümummilli Liderin arzusunda olduğu, ancaq başa çatdıra bilmədiyi birinci vəzifəsi torpaqlarımızın işğaldan azad edilməsi, ərazi bütövlüyümüzün bərpası idi.

Məhz təməli Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş qələbəni Ali Baş Komandan, Prezident İlham Əliyev bizə bəxş etdi. "Qarabağ münaqişəsi" artıq tarixə qovuşub. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad etdi. Bu, Ulu Öndərin də ruhunu şad etdi. Bu gün dahi Heydər Əliyevin qurduğu Azərbaycan özünün ən şərəfli, sevincli günlərini yaşayır. Azərbaycan var olduqca Ulu Öndərin də ruhu şad olacaq. Xalqımız həmişə Heydər Əliyevi rəhmət və sevgiylə anacaq.

***Oqtay ƏSƏDOV,***
***Milli Məclisin deputatı***

Azərbaycan. - 2023.-10 may.- S.8.